Elm .- 2026.- 16 yanvar (№ 2).- S.8.

**1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda baş verən qanlı hadisə xalqımızın yaddaşında həm böyük bir kədər, həm də sarsılmaz qəhrəmanlıq salnaməsi kimi həkk olundu. Dünya tarixinə 20 Yanvar faciəsi kimi düşən bu hadisə Azərbaycanın milli müstəqillik hərəkatında çox böyük rol oynadı və azadlığa gedən yolun mühüm dönüş nöqtəsinə çevrildi.**




# Azadlıq mübarizəmizdən Zəfərə

Erməni separatizminin baş qaldırmasına və SSRİ rəhbərliyinin məkrli siyasətinə qarşı başlayan xalq hərəkatı sonradan daha geniş vüsət aldı və milli azadlıq hərəkatının güclənməsinə səbəb oldu. Topxana meşəsinin qırılmasına, Qarabağın Ermənistana birləşdirilməsinə etiraz olaraq ayağa qalxan Azərbaycan xalqı bütün dünyaya səs saldı. Bu hərəkatı yatırmaq üçün Kreml azərbaycanlılara qarşı repressiya maşınını yenidən işə saldı. Sovet ordusu paytaxtımıza, dinc sakinlərin üzərinə yeridildi. Qadınlar, uşaqlar, qocalar aman verilmədən qətlə yetirildilər. 20 Yanvar faciəsi xalqımızın azadlıq hərəkatının sarsılmazlıq və məğlubedilməzlik sınağı oldu.Faciə zamanı 137 insan öldürüldü, 744-ü ağır xəsarət aldı, 841 nəfər isə qanunsuz olaraq həbs edildi. Sovet ordusunun əməliyyatları nəticəsində 200 mənzil, ev, şəxsi və dövlət əmlakı dağıldı. Bütün baş verənlər, hərbi cinayətlər xalqımızın mübarizə əzmini qıra bilmədi. Azadlıq mübarizəsini qan içində boğmağa çalışan Sovet imperiyasına qarşı etirazlar daha da gücləndi. Repressiya, kütləvi qətliamlar qarşısında mətinləşən xalqımız bütün dünyaya örnək ola biləcək həmrəylik nümayiş etdirdi. Milyonlarla insan 20 Yanvar faciəsindən sonra da Bakı küçələrində azadlıq şüarı səsləndirdilər. Meydanlarda gecələyən xalqımız göstərdi ki, bütün dünyanı lərzəyə salan Sovet ordusunun hərbi cinayətləri, repressiyalar mübarizə əzmimizi qıra bilməz. O günlərdə bütün dünya azərbaycanlıları həmrəy oldular, azadlıq hərəkatına dəstək verdilər.

Xalqımızın qan yaddaşında əbədi yaşayacaq 20 Yanvar faciəsi respublikamızda hər il vətən uğrunda canından keçənlərin müqəddəs anım günü kimi geniş qeyd edilir. Azərbaycan xalqı azadlıq qurbanlarını hər il yad edir, Şəhidlər xiyabanını ziyarət edərək, onlara ehtiram göstərir.

20 Yanvar faciəsinə ən doğru, qətiyyətli qiyməti məhz o zaman Moskvada olan Ümummilli Lider Heydər Əliyev verdi. O, mətbuat konfransı keçirərək sovet rəhbərliyinin qanlı cinayətlərini kəskin şəkildə pislədi. Xalqın qəlbində əbədi sevgi qazanmış Ulu Öndər siyasi iradəsinin nəticəsi olaraq 20 Yanvar hadisələrinə hüquqi qiymət verildi. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə əvvəlcə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi, 1994-cü il martın 29-da isə parlament Bakıda törədilmiş faciəli hadisələr haqqında qərar qəbul etdi.

Azərbaycan Prezidenti İlham Əliyev və Birinci vitse - prezident Mehriban Əliyeva 20 Yanvar şəhidlərinin ailələrinə və əlil olmuş şəxslərə hər zaman xüsusi həssaslıqla yanaşıblar, onların sosial problemlərinin həllinə dəstək olublar. Əminliklə söyləmək olar ki, bu gün 20 Yanvar şəhidlərinin ruhu şaddır. Onların Azərbaycanın azadlığı və bütövlüyü uğurunda apardığı mübarizə qələbə ilə nəticələndi.

2020-ci ilin sentyabrında Ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında parlaq qələbə əldə etdi. 2023-cü il sentyabrın 20-də Xankəndiyə Azərbaycanın üçrəngli bayrağını sancan Ordumuz ölkəmizin suverenliyini tam bərpa etdi. Bununla da xalqımızın 20 Yanvar faciəsi qurbanlarının arzuları, məqsədləri tam həyata keçirildi. Qazandığımız hər bir uğurun mayasında, özülündə illər öncə sovet tanklarının qarşısında öz dəyanətini nümayiş etdirən igidlərimizin qəhrəmanlığı var.

Aradan keçən 36 il bu tarixi hər bir azərbaycanlının yaddaşında daha da dərinləşdirib. 20 Yanvar faciəsi Azərbaycan xalqının milli qürur mənbəyinə, Şəhidlər xiyabanı isə müqəddəs ziyarətgaha çevrilib. Öz qanları ilə tarix yazan şəhidlərimizin müqəddəs xatirəsi daim yad ediləcəkdir.